*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 412-417*

https://doi.org/10.62837/2026.2.412

**YUSUBOVA AYGÜN Azadil qızı**
Gəncə Dövlət Universiteti
yusubovaaygun1991@gmail.com
htttps://orcid.org/0009-0000-3366-3204

# ƏZİZƏ CƏFƏRZADƏNİN "BAKI-1501" ROMANINDA ŞAH İSMAYIL OBRAZININ TƏHLİLİ

**Açar sözlər:** Səfəvilər, Şah İsmayıl, Tarixi Roman, Tarix, Azərbaycan romanı
**Ключевые слова:** Сефевиды, Шах Исмаил, исторический роман, история, азербайджанский роман
**Keywords:** Safavids, Shah Ismail, Historical Novel, History, Azerbaijani novel

## Giriş/İntroductin

Sovet dönəmində Azərbaycanda tarixi nəsrin inkişafı istiqamətində əzmlə çalışan nasir Əzizə Cəfərzadə olmuşdur. Tarixi romanların yazılması ilə bağlı məsələlərə aydınlıq gətirən tədqiqatçı Vaqif Yusifli 2001-ci ildə yazırdı: " *"Bu sahədə yalnız bir müəllif-Əzizə Cəfərzadə inadla yazıb-yaratmaqdadır."* SSRİ-nin süquta uğraması ərəfəsində Azərbaycan nəsrində tarixi roman janrı xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Görkəmli nasir Əzizə Cəfərzadənin şah əsərlərindən biri, XX əsrin 80-ci illər nəsrində önməli ədəbi hadisə olan "Bakı-1501" romanı XVI əsrin əvvəllərində Azərbaycanın indiki və ətraf ərazilərində cərəyan etmiş dini çəkişmələrdən, Səfəvilərin yüksəlişindən, tarixi müharibələrdən –qızılbaşların Bakı qalasına, Şamaxıya hücumlarından, həmçinin Şah İsmayılın idarəçi, sərkərdə, ədəbi sima kimi mübariz və keşməkeşli həyatından bəhs edir. Şübhəsiz ki, tarixi roman müəllifinin başlıca vəzifəsi tarixi hadisələri və mənzərəni dəqiqliklə əks etdirməkdən ibarət olmayıb. Professor Tofiq Hüseynoğluya görə, *"tarixçi ilə yazıçını, alimlə sənət adamını tarixi fakt və materiala münasibətdə bir-biri ilə eyniləşdirmək, onların gördükləri işlər arasında mütləq bərabərlik işarəsi qoymaq olmaz. Hərçənd ki, bunları bir-birinə qarşı qoymaq, bir-birinin inkarı kimi də qəbul etmək düzgün deyil"* [4, s.128]. Mühüm tərbiyə vasitəsi olan tarixi əsərlər vasitəsilə gənc nəsil öz xalqının keçmiş həyatı, tarixi mübarizəsi, görkəmli şəxslərinin həyatı ilə yaxından tanış olur, onlarda vətənpərvərlik və milli iftixar hissi güclənir. Tarixi romanda xalqın əsrlər boyu mövhumat və cəhalət qaranlığından çıxmaq uğrunda apardığı mübarizə, əzmkarlıq ruhu əks olunur, onları azadlığa aparan cəsarət, qəhrəmanlıq yolları təsvir olunur. Keçmişin bu keşməkeşli hadisələri ibrət dərsi kimi mənalanır. Yavuz Axundovun qeyd etdiyi kimi, *"tarixi roman həmçinin tarixi öyrənməyi asanlaşdırır"* [1, s.7].

Fərman Kərimzadə, Əlisa Nicat, Nəriman Əbdülrəhmanlı, Kamal Abdulla, Elçin Hüseynbəyli, Nurəddin Ədiloğlu və Hüseynbala Mirələmov kimi məşhur yazıçıların qələmlərindən Şah İsmayılın həyatı və fəaliyyəti gəlib keçmiş, həmin əsərlər öz oxucularına dövrün Şah İsmayılını tarixi hadisələr baxımından təqdim etməyə ça-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 412-417*

lışmışdır. Əzizə Cəfərzadənin "Bakı-1501" adlı tarixi romanını Şah İsmayılın xarakterinə münasibət nöqteyi-nəzərdən dəyərləndirmək vacib məsələlərdən biridir.

**Əsas hissə/Main part**

SSRİ-nin zəifləməsi və dağılması ilə Azərbaycanda tarixi roman sahəsində inkişaf müşahidə edilmişdir. Müxtəlif tarixi hadisələr və tarixi şəxsiyyətlər dövrün tarixi romanlarının ana mövzusuna çevrilmişdir. Bu tarixi şəxsiyyətlər arasında tarixi romanlara mənbə olanlardan biri də Şah İsmayıl Xətai olmuşdur. Dövlət quruculuğu, Azərbaycan dilinin inkişafı və dövlət səviyyəsində qorunması istiqamətində atdığı addımları ilə ədəbiyyatımızda önəmli yer tutan Şah İsmayıl ilə bağlı yazılmış tarixi romanlar isə mövzu baxımından bir-birlərindən fərqlənmişdir. Şah İsmayıl Xətai ilə bağlı digər xalqların ədəbiyyatlarında da maraqlı əsərlərə rast gəlinir, lakin Azərbaycan ədəbiyyatına görə nisbətən bu obrazın və tarixi hadisələrin fərqli şəkildə işlənməsi diqqətçəkən məqamlaradandır. Fəqət Şah İsmayıl xarakterinə duyulan sevgi və hörmətin də hər bir ölkə ədəbiyyatında olduğunu söyləmək vacibdir.

. Əzizə Cəfərzadənin "Bakı-1501" tarixi romanı Şah İsmayılın həyatı və fəaliyyəti ilə bağlı özündə məlumatlar əks etdirmiş olması baxımından dəyərli tarixi romanlardandır. Tədqiqat işi Əzizə Cəfərzadənin "Bakı-1501" tarixi romanının analizi, təhlili və müxtəlif yazılı mənbələrdən istifadə edilərək, əldə edilmiş məlumatlar sayəsində yazılmışdır. Tədqiqat işində Əzizə Cəfərzadənin "Bakı-1501 romanının məzmununun təhlili ilə yanaşı, Əzizə Cəfərzadənin özü haqqında və Şah İsmayıl tarixi şəxsiyyəti barəsində də məlumatlara müxtəlif mənbələrdən istinad edilərək yer verilmişdir. Başqa ifadə ilə yazmalı olsaq, tədqiqat işinin metodologiyası tamamilə romanın analizi və təhlilini özündə birləşdirir. Bütövlükdə, tarixi hadisələrə əsaslanaraq yazılmış olsa da, tarixi əsərlərdə müəllifin üslubunu və mövqeyini də görmək mümkündür. Bu durum, əlbəttə ki, nasirin yazılarında da özünü göstərmişdir.

Şah İsmayıl kimdir? Şah İsmayıl Xətai 1487-ci il iyun ayının 23-də bugün Cənubi Azərbaycan torpaqları olaraq bilinən Ərdəbil şəhərində anadan olmuşdur. İsmayılın anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı olmuş Uzun Həsənin övladı idi. Ağqoyunluların Səfəvilərlə qohumluq münasihbətləri yaratmaları onların artan nüfuzu ilə əlaqədar idi. Buna baxmayaraq Ağqoyunluların Səfəvilərlə münasibəti sabit qalmır, Səfəvilərin günü-gündən artan qüdrəti onları təşvişə salırdı. Şeyx Heydər amansızlıqla qətlə yetirilir, xanımı Aləmşah bəyim isə iki oğlu - İbrahim və azyaşlı İsmayılla birlikdə İstəxrdəki həbsxanaya salınır. Ağqoyunlu hökmdarı Sultan Yaqubun öldrülməsindən sonra hakimiyyət uğrunda gedən mübarizədə Rüstəm Mirzə Səfəvilərdən istifadə etmək məqsədi ilə Şeyx Heydərin övladlarını həbsdən azad edir. Öz səhvlərini sonradan anlayan ağqoyunlular İsmayıl və ailəsini bir daha ələ keçirə bilmirlər. Şah İsmayıl Gilan hakimi Həsən xanın himayəsi altında Lələ Hüseyn bəy tərəfində tərbiyə edilir, bir dövlət xadimi kimi yetişdirilir [7, s.5] Şah İsmayılın yeni qurduğu dövlətin adının Səfəvilər olmasının səbəbinin İsmayılın ulu babalarından olan, Azərbaycanın Ərdəbil şəhərində yaşamış müqəddəs sayılan, el arasında Şeyx

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 412-417*

Səfi adlandırılan Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl Ərdəbilinin (1252-1335) adından götürülmüş olduğunu da qələmə almağımız faydalı olacaqdır. 1499-cu ildə hakimiyyət uğrunda gedən döyüşləri bir fürsət olaraq görən Səfəvilər hakimiyyəti ələ keçirmək üçün fəaliyyətə başlayırlar [6, s.12]

Həmin dövrdə mövcud olan dövlətlərdə istər daxili çəkişmələr, istərsə də, xarici hücumlar Səfəvilərin işini daha da rahatlaşdırırdı. Beləliklə, Şah İsmayıl öz dövlətini qurmağı bacarmaqla qalmır, qurduğu dövləti gücləndirməyi də bacarır. Dövlətin güclənməsi isə onun rəqiblərini də bərabərində gətirir. İslamın sünni cərəyanının bayraqdarı olan Osmanlı və Şeybani dövlətləri rəsmi şiə məzhəbli Səfəvilər dövlətini təkcə hərbi-siyasi baxımdan deyil, ideoloji cəhətdən də özlərinə ciddi rəqib hesab edirdilər. I Şah İsmayıl tərəfindən 1501-ci ildə qurulmuş Səfəvi dövləti feodal quruluşa sahip olan teokratik bir monarxiya idi. 1510-cu ildə dövlətin ərazisi Qafqazdan Fars Körfəzinə qədər genişlənmişdi, mərkəzi Təbriz şəhəri, rəsmi ideologiyası şiəlik idi. Dövlətin qurucu və idarəedici ünsürü Qızılbaş Türk boyaları olmuşdu. Xətai anadilli poeziyanın bayraqdarlarından bir olaraq hakimiyyət illərində Azərbaycan dilinin yaşaması, gələcək nəsillərə ötürülməsi naminə uğurlu işlər görüb . O, hakimiyyətə gəldikdən sonra Azərbaycan tarixinin, mədəniyyətinin, milli təhsilin yeni səhifələri açıldı. Məlumdur ki, onun dövründə anadilli mədrəsələr, təhsil müəssisələri mövcud olub, yüzlərlə azərbaycanlı onun açdığı məktəblərdə təhsil alıb.

Nasir – Əzizə Cəfərzadənin qələmə aldığı “Bakı - 1501” romanı üç hissədən ibarətdir. Romanın I hissəsi “Bakı - 1501” adlanır. Burada “Zənbil içində keçən bir gün” bölməsində balaca İsmayıl ilə bağlı yazılır: *“Lahican bağları körpə İsmayılın çox xoşuna gəlmişdi. Burada bir qədər dinclik tapmışdı.Yeddi yaşlı uşaq olmasına baxmayaraq yaşlı insan ömrünün dözə biləcəyi bəlalara dözmüşdü. Odur ki, İsmayıl yaşıdlarına nisbətən çox inkişaf etmişdi.”* [2, s.21]. Bu hissədə nasir obrazın sonrakı taleyində göstərdiyi davranışların uşaqlıq illərindəki yaşantıları ilə bağlılığını əks etdirib. Romanda göstərilir ki, İsmayıl erkən yaşlarından qılıncını, nizəsini, ox və kamanını işə salır, Mirzəli hakimin və başqa xanzadələrin oğulları ilə birgə Məhəmməd bəy və ya onun qardaşı Əhməd bəyin nəzarəti ilə hərbi təlimlərdən keçirdi. Hadisələrdən aydın olur ki, bu “oyunlar” onun xoşuna gəlsə də, çəkdiyi keşmə-kəşlərin acılarını unutdura bilmirdi. Ümumiyyətlə, nəsrdə psixologizm reallığı, ədəbi-bədii əksetdirmənin başlıca prinsiplərindən hesab olunur. Həmin üsul və prinsip ilə obrazın daxili aləmini, hiss və həyəcanlarını ifadə etməyin bir sıra formalarından nasir Əzizə Cəfərzadə bu romanda məharətlə istifadə edib. Əsərdə göstərilir ki, on dörd yaşına çatmış İsmayıl artıq düşmənlərinə, xalqına nifrət bəsləyən yadellilərə qarşı amansız mövqe tuturdu: *“İsmayıl qətiyyətlə başını qaldırdı. Niqabın gözlüklərindən Bayram bəy Qaramanlıya iti bir nəzər saldı: «Görünür, sənin qəlbində düşmənə qarşı kin və qəzəb odu qalanmayıb. Görünür, sən körpə ikən İstəxr qalasında nəm zirzəmilərdə anan və qardaşlarımla birkə sürgün olub yatmamısan. Balışın daşlar, yorğanın buludlar olmayıb. Görünür, səni hər xısıltıdan gizlətməyiblər. Zənbilə qoyub ağacdan*

*asmayıblar. İki qardaşın və bütün nəslin, arvadlı-kişili, uşaqlı-böyüklü qırılmayıb. Yox!.. Onda sən tərəddüd etməzdin. Görünür, sənin dini-mübin yolunda canın qurban deyilməyib. Mənim isə bütün bu yollardan keçən cismim düşmənə nifrət hissilə doludur"* [2, s.39-40]. "Bakı-1501" romanında "Quzğun" adlı bölmədə Şah İsmayılın obraz olaraq daxili dünyasında öz-özü ilə çəkişmə apardığını görürürk. İsmayıl burada insan canına qıyan, qan tökən biri kimi, monoloji mühakimə ilə özünə yanaşır. Lakin zamanla o bu vəziyyətə alışır, burada nasir reallığa uyğunluq nümayiş etdirib. Ədəbiyyatşünas A.B.Yesin obrazların daxili dünyasını əks etdirmək baxımından bir sıra formaların mövcud olduğunu qeyd edirdi. Onun fikrincə yazıçı obrazın daxili dünyası haqqında ümumi məlumat verməklə, daxildə gedən psixoloji proseslərə sözlə işarə edirdi. [3, s.9] Romanda Əzizə Cəfərzadəni daha çox qınaq obyektinə çevirən məqam bu olub: *"Təlimçi mürşüdə demişdi: «Bəlkə, hakimiyyətə özün hazırlaşasan. Bu uşağın meyli məncə qılıncdan çox kitabadır. Qorxuram, ondan bir şey çıxmasın». Lələ mürşüd cavab vermişdi: «Qorxma, çıxacaq! Onda elə bir zalım ürək tərbiyə etmişəm ki, cəllad da həsrətin çəkər. Rüzgarın gözü hələ beləsini görməmiş ola gərək. Şair olmağından özü utanacaq. Mənim hakimiyyətimə qalanda—yox! Şeyx Səfiyəddin nəslinə avamların etiqadı, böyük inamı var. Dalınca kor-korana gedəcəklər. Bizə də bu lazımdı». Bu mükalimədən İsmayıl xəbər tutmadısa da, sonralar döyüş meydanlarında təlimçisini belə heyran qoydu. Sən demə, müəllim də səhv edərmiş..."* [2, s.76-77] Əzizə Cəfərzadə obraz olaraq Şah İsmayılı alçaltmır, onun tarixi kimliyini və mübarizə meydanında qoruduğu mövqeni öz təxəyyülünə uyğunlaşdırmaqla təqdim edir. Romanın müxtəlif bölmələrində xalqın Şah İsmayıla olan münasibətinini fərqli istiqamətlərdə açıqlamışdır. Əsərin "Qaraçı Ribatı" hissəsində nasir qeyd edir: *"Başqa birisi sözə qarışdı: —O allahdan nazil olan Quran haqqı, mən özüm öz gözümlə görmüşəm ki, qaziləri qəzavata göndərəndə deyirdi: "Mənim yanımda beş yüz düşmən başından, sizin əzilən bir barmağınız qiymətlidi. Özünüzü qoruyun, övladlarım".* [2, s.214-215] Əzizə Cəfərzadə burada Şah İsmayıl obrazının əsas xislətini açmaq üçün onu müəyyən dərəcədə insani münasibətlər fonunda götürərək,psixologiyasının ən gizli qatlarına yol açmağa çalışmışdır. Şah İsmayıl obrazını qələm alan nasir, həqiqətlərə obyektiv münasibət, sənədliliklə bədiiliyin vəhdəti, təsvir olunan dövrün ictimai ziddiyyətlərinin, obrazın daxili ziddiyyətlərinin təhlilində açmaq üsulu, müəllifin bu məqamlarla əlaqədar olan maraqlı müşahidələri və inandırıcı nəticələri mövcuddur. Tədqiqatçı Akif Hüseynov haqlı olaraq yazırdı: *"Surətin sinfi, milli və insani mahiyyəti vəhdətdə onun fərdi təbiətində təcəssüm edib, onu hərtərəfli səciyyələndirməlidir"* [4, s.7]

## Nəticə/Conclusion

Azərbaycan ədəbiyyatının müəyyən dövrləri üçün vahid obraz tipi olmuşur. Məlumdur ki, nəsrdə inkişaf uğrunda mübarizə aparmaqla cəmiyyət quruculuğunda fəal iştirak edən, mənfiliklərə qarşı mübarizə aparan "müsbət qəhrəman" tipi mövcud idi. Xüsusilə Azərbaycan sovet ədəbiyyatı tarixi məhz bu tip obrazlarla zəngin

olmuşdur. Əzizə Cəfərzadənin yaradıcılığında xüsusi əhəmiyyətə malik olan "Bakı-1501" romanını məhz bu tipli qəhrəmanlardan ibarət hesab etmək, onun əsas vəzifəsini bu dairədə məhdudlaşdırmaq qəbuledilməzdir. Ümumilikdə , nasirin bu əsərində əsas obraz olan Şah İsmayıl Xətai daha çox düşüncə, əqidə və mübarizə qəhrəmanıdır. Şah İsmayılın "mənfi" və müsbət" obraz bölgüsündə təqdim edilməsi romanda "rənglərin qatışığı" fonunda ərsəyə gətirilən obraz kimi təsvirinə gətirib çıxarmışdır. Bu baxımdan Əzizə Cəfərzadənin əsas obrazı bütün mürəkkəbliyi ilə təsvir etməsi, tarixi qəhrəmanın reallıqdakı xüsusiyyətlərinin tamamilə yox edilməsi kimi anlaşılmamlıdır. Danılmaz faktdır ki, əsərin əsas qəhrəmanı qüvvətli və cəsarətli şəkildə yaradılırsa, bunu yazıçının aktiv sənətkar mövqeyi ilə əlaqələndirirlər. Şah İsmayılı obraz kimi təhlil edərkən sırf müsbət obraz olaraq yanaşmaq məsələsi qeyri-real olaraq qalmaqdadır, lakin əaslı şəkildə sübut etmək olmaz ki, "Bakı-1501" əsərinin müəllifi müsbət idealsız yazıçıdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Axundov Yavuz. Tarixi roman yeni mərhələdə (1980-90-cı illər). Bakı: Maarif, 1998, 175 s.
2. Cəfərzadə, Ə. "Bakı-1501". Bakı , Qanun nəşriyyatı, 2021. səh 352
3. Есин. А. Б.- Художественный психологизм как теоретицеская проблема. – Вестник Московского ун-та. Сер-9, филология, 1982, №1. с. 19
4. Hüseynoğlu, T. Söz – tarixin yuvası. Bakı: Azərnəşr, 2000, 166 s.
5. İbadova, F. (2020, 08 17). Kafkazh. Şah İsmayıl Xətai: https://kafkazh.com/sah-ismayil-xetai/
6. Ömərov, V. (2012). Azərbaycan Səfəvilər dövlətini yetişdirən tarixi şərait. Səs, 14.
7. Rəşidqızı, Ə. (2010). Tarixi şəxsiyyət I Şah İsmayıl Xətai. Ədalət, 5.
8. Sarıyeva, İ. (2017). Xətai yaradıcılığı dövlətimizin, tarix və mədəniyyətimizin yaşadıcısıdır... Bakı xəbər, 15.
9. Yıldırım, B. (2015). İçerik Çözümlemesi Yönteminin Tarihsel Gelişimi, Uygulama Alanları ve Aşamaları. Konya: LiteraTürk Academia.

**Yusubova Aygun Azadil**

**AN ANALYSIS OF THE IMAGE OF SHAH ISMAIL IN AZIZA JAFARZADEH'S NOVEL "BAKU-1501"**

**Abstract**

The creative work of Aziza Jafarzadeh, one of the most prominent representatives of 20th-century Azerbaijani prose, especially her works written in the genre of the historical novel, holds exceptional value in enriching Azerbaijani literature. Her novel *"Baku-1501"*, published in 1981, is dedicated to Shah Ismail Khatai, a historical figure who left a deep mark on Azerbaijani history through his political views and literary legacy and who became a patron of creative individuals. Many well-known representatives of Azerbaijani literature, literary criticism, and literary

studies have expressed various opinions regarding this novel. In general, both the acceptance and rejection of the novel as a literary fact, as well as polemical positions concerning the image of Shah Ismail, have been approached from several perspectives.
During the analysis of the novel *"Baku-1501"*, the first fundamental methodological error in its interpretation was related to Aziza Jafarzadeh's insufficiently accurate portrayal of Shah Ismail's political identity. The present research consists of an Introduction, Main Part, Conclusion, and a list of references, and aims to analyze the image of Shah Ismail in Aziza Jafarzadeh's historical novel *"Baku-1501."* In the Main Part, alongside the analysis of the novel, information about Aziza Jafarzadeh and Shah Ismail is also provided. The purpose of the study is to demonstrate Aziza Jafarzadeh's approach and attitude toward the image of Shah Ismail within her literary creativity.

**Юсубова Айгюн Азадиль гызы**

**АНАЛИЗ ОБРАЗА ШАХА ИСМАИЛА В РОМАНЕ АЗИЗЫ ДЖАФАРЗАДЕ «БАКУ–1501»**

**Аннотация**

Творчество Азизы Джафарзаде, одной из ярких представительниц азербайджанской прозы XX века, особенно её произведения, написанные в жанре исторического романа, обладает исключительной ценностью для обогащения азербайджанской литературы. Роман «Баку–1501», опубликованный в 1981 году, посвящён Шаху Исмаилу Хатаи — исторической личности, оставившей заметный след в истории Азербайджана своими политическими взглядами и литературным наследием, а также ставшей покровителем творческих людей. Многие известные представители азербайджанской литературы, литературной критики и литературоведения высказывали различные суждения по поводу данного романа. В целом вопросы признания или отрицания романа как художественного факта, а также полемические позиции, связанные с образом Шаха Исмаила, рассматривались с различных ракурсов. При анализе романа «Баку–1501» первой принципиальной методологической ошибкой в подходе к произведению стало недостаточно точное изображение Азизой Джафарзаде политической идентичности Шаха Исмаила. Настоящее исследование состоит из введения, основной части, заключения и списка литературы и ставит своей целью анализ образа Шаха Исмаила в историческом романе Азизы Джафарзаде «Баку–1501». В основной части наряду с анализом романа представлены сведения об Азизе Джафарзаде и Шахе Исмаиле. Цель исследования — показать отношение Азизы Джафарзаде к образу Шаха Исмаила в её литературном творчестве.

**Rəyçi: Filologiya elmləri doktoru, professor Asif Rüstəmli**